

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

15 yanvar 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 2 (3765)

# Qələbədən Quruculuğa



## Qarabağın bərpasında yeni mərhələ başlayıb

**Prezident İlham Əliyevin yanvarın 13-də Qarabağ bölgəsinə səfəri işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və inkişaf proseslərinin artıq yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi.**

> *“Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb”*

Səfər çərçivəsində dövlət başçısı hərbi sənaye, yaşıl enerji, dağ-mədən sənayesi və kəndlərin bərpası üzrə bir-birini tamamlayan strateji istiqamətlər üzrə görülən işlərlə yerində tanış olub.

Prezident ilk olaraq yenidənqurmadan sonra fəaliyyətə başlayan Tərtər elektromexanika zavodunun açılışında iştirak edib.

Müasir texnoloji avadanlıqlarla təchiz olunan müəssisədə hərbi təyinatlı məhsulların istehsalı nəzərdə tutulur. Zavodda texnoloji xətlərin qurulması və istehsal proseslərinin təşkili yerli mütəxəssislər tərəfindən həyata keçirilib. Burada yaradılan keyfiyyətə nəzarət laboratoriyası məhsulların milli və beynəlxalq standartlara uyğunluğunu təmin edir. Bu fakt Azərbaycan müdafiə sənayesinin idxaldan asılılığının azaldılması və ixrac imkanlarının genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səfər çərçivəsində Prezident Çapar kəndində aparılan bərpa işləri ilə tanış olub. Kənddə fərdi yaşayış evlərinin mərhələli şəkildə bərpası, mühəndis-kommunikasiya xətlərinin yenidən qurulması, yolların çəkilməsi və sosial infrastrukturun yaradılması sakinlərin dayanıqlı məskunlaşmasına xidmət edir. Artıq ilk ailələrin kəndə qayıtması postmünaqişə dövründə sosial reinteqrasiyanın real nəticələrini göstərir.

Enerji təhlükəsizliyi və yaşıl enerji strategiyası Prezidentin diqqət mərkəzində olan əsas istiqamətlərdən biri kimi "Qozlukörpü" Su Elektrik Stansiyasının açılışında da ön plana çıxıb. Tərtərçay üzərində inşa edilən 14,7 meqavat gücündə bu stansiya Qarabağın "yaşıl enerji zonası"na çevrilməsi strategiyasının mühüm elementidir.

Prezident Heyvalı kəndində və Çıldıran kəndində aparılan bərpa və quruculuq işləri ilə tanış olaraq kəndlərin mərhələli şəkildə yenidən yaşayışa qaytarılmasının prioritet olduğunu vurğulayıb.

Səfərin mühüm iqtisadi komponentlərindən biri Prezidentin Canyataq kəndində yerləşən Dəmirli Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanışlığı oldu. Türkiyə və Almaniya texnologiyaları əsasında yenidən qurulan kompleks qeyri-neft sektorunun inkişafına, ixrac potensialının artmasına və yerli əhalinin məşğulluğunun təmin edilməsinə xidmət edir. Burada işlə təmin olunan şəxslərin əhəmiyyətli hissəsinin keçmiş məcburi köçkünlər olması sosial-iqtisadi bərpanın inklüziv xarakter daşıdığını göstərir.

Prezident həmçinin antiterror əməliyyatı nəticəsində azad edilmiş Aşağı Oratağ kəndində görülən işlərlə tanış olub.

Kənddə yüzlərlə evin bərpası, sosial infrastrukturun yaradılması və ailələrin geri dönüşü regionda təhlükəsizlik, bərpa və inkişaf proseslərinin paralel və əlaqəli şəkildə aparıldığını sübut edir.

Həmin gün dövlət başçısı Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə də görüşüb.

Ümumilikdə, bu səfər göstərdi ki, Qarabağ və Şərqi Zəngəzurda bərpa prosesi təkcə yaşayış evlərinin tikintisi ilə məhdudlaşmır. Burada hərbi sənaye, enerji, sənaye istehsalı və kənd təsərrüfatı vahid strateji yanaşma çərçivəsində inkişaf etdirilir.

# Su təhlükəsizliyi

## Bunun üçün strateji proqram qəbul olunub

**Yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə Bakı şəhəri və Abşeron yarımadasında su təsərrüfatı sahəsində problemlərin sistemli və uzunmüddətli həlli baxımından mühüm mərhələ kimi dəyərləndirilə bilər.**

2026–2035-ci illəri əhatə edən Dövlət Proqramı texniki layihələr toplusu, urbanizasiya, iqlim dəyişiklikləri və əhalinin artımı fonunda ölkənin su təhlükəsizliyinə yönəlmiş strateji sənəddir. Prezident çıxışında son 20 ildə həyata keçirilmiş regional inkişaf proqramlarının nəticələrini xüsusi vurğulayaraq elektrik enerjisi, qazlaşdırma və yol infrastrukturu sahəsində əldə olunan nailiyyətlərin Azərbaycanı istehsalçı və ixracatçı ölkəyə çevirdiyini deyib. Dövlət başçısının diqqət çəkdiyi əsas məqamlardan biri Bakının və Abşeron yarımadasının su probleminin həll olunmasıdır. Bu, problemin miqyasını real qiymətləndirməklə yanaşı ilk dəfə olaraq məhz paytaxt və ətraf ərazilər üçün ayrıca, uzunmüddətli proqramın qəbulunu zəruri edib.

Təxminən 30 yeni su anbarının tikintisi, yüzlərlə kilometr magistral və paylayıcı şəbəkələrin qurulması, fasiləsiz içməli su ilə təminatın 70 faizdən 95 faizə çatdırılması real hədəflərdir. Xüsusilə su itkilərinin 40–45 faizdən kəskin şəkildə azaldılması dövlət vəsaitlərinin səmərəli istifadəsi və resursların qorunması baxımından prinsipial əhəmiyyət daşıyır.

Proqramda kanalizasiya və yağış sularının idarə olunmasına xüsusi yer ayrılması Bakının son illər üzləşdiyi infrastruktur risklərinə cavabdır. Abşeron yarımadasında duzsuzlaşdırma zavodunun tikintisi ilə bağlı açıqlama isə proqramın strateji baxışını daha da gücləndirir.

Müşavirə göstərdi ki, Dövlət Proqramı növbəti onilliklər üçün Bakının və Abşeronun dayanıqlı inkişafının əsasını qoymağı hədəfləyir. Prezidentin icraya ciddi nəzarət mesajı isə bu strateji sənədin kağız üzərində qalmayacağını və real nəticələr doğuracağını indidən deməyə əsas verir.

# Yeni külək elektrik stansiyası

## Azərbaycan bərpaolunan enerji potensialını artırır

Yanvarın 8-də Bakıda, “Gülüstan” sarayında 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib. Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilən stansiya Azərbaycanın bərpaolunan enerji potensialının artırılmasında mühüm rol oynayacaq.

Açılış mərasimində Prezident İlham Əliyev bildirib ki, yeni stansiyanın istismara verilməsi ölkənin enerji təhlükəsizliyini daha da möhkəmləndirəcək. Son 20 ildə Azərbaycanın generasiya gücləri təxminən üç dəfə artaraq 10 min meqavata çatıb və bu göstərici gələcək illərdə bərpaolunan enerji layihələri hesabına daha da yüksələcək.

Prezident Azərbaycan enerji sektorunda həm ənənəvi, həm də bərpaolunan mənbələrinin paralel inkişafının strateji prioritet kimi müəyyən edildiyini vurğulayıb. Çıxışda ölkədə mövcud əlverişli investisiya mühiti, maliyyə sabitliyi və aşağı xarici borc səviyyəsi də xüsusi qeyd olunub.

# Dövlət Proqramı təsdiqləndi

## Prezident bununla bağlı Sərəncam imzalayıb

Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı təsdiq edilib.

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Dövlət Proqramının əsas məqsədi paytaxt və Abşeron yarımadasında su təsərrüfatı infrastrukturunun müasirləşdirilməsi, əhalinin keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması, yağış və tullantı sularının idarə olunmasının səmərəliliyinin artırılmasıdır.

Nazirlər Kabinetinə proqramda nəzərdə tutulan tədbirlərin icrasının əlaqələndirilməsi və nəzarətdə saxlanılması, həmçinin icra vəziyyəti barədə ildə bir dəfə Prezidentə məlumat verilməsi tapşırılıb. Proqramın icrasının monitorinqi və qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək.

# Zəngəzur dəhlizi regionu dəyişəcək

## Dəhlizin istifadəyə verilməsi reallaşır

Yaxın perspektivdə Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi Azərbaycanın logistik gücünü zirvəyə daşıyacaq. Regionun iqtisadi taleyini dəyişəcək dəhliz Azərbaycanı qlobal tədarük zəncirinin vacib hissəsinə çevirəcək layihədir.

Prezident İlham Əliyevin şəxsi nəzarəti altında dəhlizin praktiki icrası istiqamətində böyük irəliləyişlər əldə edilib. Ölkə daxilindəki (Ağbənd istiqaməti) infrastruktur artıq tam yekunlaşıb. Naxçıvan Muxtar Respublikası ərazisindəki 190 kilometrlik dəmir yolu şəbəkəsinin yenidən qurulması sürətlə davam edir. Qalan kiçikmiqyaslı işlər də cari ildə yekunlaşdırılacaq.

Gənclərlə güclənən xidmət.................2
Polis onlayn məkanda........................2
Polis - həm də xilaskar........................3
Xidmətin ön cəbhəsi...........................4

# Respublika Xəbərləri

### Piyadalarla bağlı yeni dövlət standartı

Piyadaların təhlükəsizliyi üzrə yeni dövlət standartı qəbul ediləcək. Bununla bağlı Daxili İşlər Nazirliyinin əməkdaşlarının da iştirak etdiyi iclasda "Avtomobil yolları və küçələr. Piyadaların hərəkət təhlükəsizliyi. Ümumi tələblər" dövlət standartı layihəsi müzakirə edilib və müvafiq quruma təqdim edilməsi barədə qərar qəbul olunub.

### Bu kəndlərə ilk köç gerçəkləşib

Yanvarın 9-da Ağdərə rayonunun Çıldıran, Aşağı Oratağ, Heyvalı, Çapar kəndlərinə ilk köç reallaşıb. Kəndlərə köçən 89 ailəyə evlərinin açarları təqdim olunub. İlk mərhələdə Aşağı Oratağ kəndinə 119 nəfər, Çapar kəndinə 96 nəfər, Heyvalı kəndinə 74 nəfər, Çıldırana isə 48 nəfər qayıdıb.

### İqtisadi proqnozlar müsbətdir

Birləşmiş Millətlər Təşkilatı 2026-cı ildə Azərbaycanda 2,7 faiz iqtisadi artım gözləyir. Gələn il isə ölkənin ümumi daxili məhsulunda 2,6 faiz artım proqnozlaşdırılır. İqtisadi artım təbii qaz hasilatı və ixracının artması, həmçinin qeyri-neft-qaz sektorunda davamlı artım hesabına sürətlənəcək.

### Təhlükəsizlik turistləri cəlb edir

Ötən ilin yanvar-noyabr aylarında Şərqi Avropa ölkələrindən Azərbaycana 104.3 mindən çox xarici vətəndaş səfər edib. Təkcə noyabr ayında qeyd edilən regiondan ölkəyə 9.2 mindən çox xarici vətəndaş gəlib. Bu, 2024-cü ilin noyabr ayının göstəricisini 16.1 faiz üstələyir. Mütəxəssislərin rəyinə görə artımın əsas faktoru təhlükəsizlikdir.

### Bakıda yeni tunellər tikilir

Paytaxtın nəqliyyat sisteminin daha da müasirləşdirilməsinə yönəlmiş növbəti mühüm layihənin icrasına başlanılıb. Belə ki, "Çinarlı" yaşayış kompleksini Abay Kunanbayev küçəsi ilə birləşdirən avtomobil və piyada tunelləri tikiləcək. Avtomobil tunelinin uzunluğu 175,3 metr, piyadaların hərəkəti üçün nəzərdə tutulan tunelin uzunluğu 201,9 metr təşkil edəcək.

### Metrodan nə qədər sərnişin istifadə edib?

Ötən il metrodan 227 milyona yaxın sərnişin istifadə edib. Ən çox sərnişin daşıyan stansiyalarına "Koroğlu" liderlik edib. NFC ödəniş sistemi cəmi 2 ay ərzində milyonlarla istifadə ilə metroda rəqəmsal rahatlığın təminatına çevrilib. Əvvəlki illə müqayisədə 10,6 faiz daha çox sərnişin isə "Əlçatan metro" xidmətindən yararlanıb.

### Qarabağın turizm potensialı

Şuşa şəhərinin turizm inkişaf konsepsiyaları hazırlanıb. Bu istiqamətdə Daşaltı və Tuğ kəndlərinin, eləcə də Hadrut və Suqovuşan qəsəbələrinin mədəni turizmyönümlü inkişafı qiymətləndirilib. Həmçinin Füzuli rayonundan başlayaraq "Zəfər yolu" turizm marşrutu üzrə səfər proqramı hazırlanıb.

### Kirayə yolu ilə mənzil ala bilərsiniz

İpoteka və Kredit Zəmanət Fondu satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində Sumqayıt şəhərində daha 222 yeni, tam təmirli mənzili vətəndaşlara təqdim edib. Mənzillərin aylıq ödənişi 347 manatdan başlayır. Yeni mənzillər seçim üçün yanvarın 15-i saat 15:00-dan açıq olacaq.

### Ölkəmiz yolların keyfiyyətinə görə liderdir

Ötən il azad olunan ərazilərdə ümumi uzunluğu 3720,5 kilometr olan 64 adda avtomobil yolunun tikintisi və 1 hava limanının inşası üzrə layihələr icra olunub. Ümumilikdə Azərbaycan yol infrastrukturunun keyfiyyət reytinqinə görə MDB ölkələri arasında 1-ci, dünyanın 141 ölkəsi arasında 24-cü yerdədir.

### Pensiyaların indeksləşdirilməsinə başlanılıb

2026-cı ildə 1.1 milyon vətəndaşın pensiyalarının indeksləşdirilməsi nəzərdə tutulub. İndeksasiya təqribən 9 faiz səviyyəsində həyata keçiriləcək. Bu il həmçinin 400 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunacağı proqnozlaşdırılır.

### Yol polisi xəbərdarlıq edir

Qarşıdakı günlərdə respublika ərazisində hava şəraitinin dəyişəcəyi ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi yol hərəkəti iştirakçılarına müraciət edib. Bildirilir ki, hərəkət sürəti yol və hava şəraitinə uyğun seçilməli, təhlükəsiz ara məsafəsi və interval mütləq qorunmalıdır. Əlverişsiz havalarda daha diqqətli və ehtiyatlı davranılmalıdır.

# Gənclərlə güclənən xidmət

## 2025-ci ildə 21 sıra baxışında 4392 nəfər seçilib, onlardan 435 nəfər Vətən müharibəsi iştirakçısıdır

**Bu gün Prezident İlham Əliyev ölkəmizin daha da qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir. Bu inamın nəticəsi olaraq gənclər üçün geniş imkanlar yaradılır, onların dövlət idarəçiliyində və ölkənin təhlükəsizlik sistemində rolunu gücləndirən qərarlar qəbul edilir.**

Dövlətçiliyin əsas sütunlarından olan daxili işlər orqanlarında gənclərə açılan perspektivlər də bu strategiyanın bir hissəsidir.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən respublikanın müxtəlif şəhər və rayonlarında keçirilən sıra baxışları ilə polis və daxili qoşunlarda xidmət etmək istəyən gənclərin arzusu real imkana çevirilib, eyni zamanda şəxsi heyətin yenilənməsi və peşəkar kadr seçimi üçün şəffaf mexanizm formalaşdırılıb. Bu proses həm gənclərin xidmətə cəlb olunmasına geniş imkanlar yaradır, həm də polisin gələcək inkişaf xəttini müəyyənləşdirir.



### Şəffaflığı təmin edən amillər

Polis orqanlarında sıravi və kiçik rəis heyətində xidmət etmək istəyən gənclərin sıra baxışından keçməsi onların öz arzularını gerçəkləşdirməsinin önəmli mərhələsidir. Xidmətə qəbulun prosesin obyektivliyi, qərəzsizliyi ön planda dayanır, namizədlərə bərabər şəraitin yaradılmasına təminat verilir.

Polis peşəsini seçən gənclərin istər daxili işlər orqanlarının təhsil müəssisələrinə müraciətlərinin hər il artması, istərsə də sıravi və kiçik rəis heyətinə xidmətə qəbulun yüksəlməsinin bir səbəbi də prosesin başdan sona qədər aşkarlıq prinsipləri əsasında aparılmasıdır.

Təhlillərə görə, ötən il ümumilikdə 21 sıra baxışında 4392 nəfər növbəti seçim mərhələsinə buraxılıb.

Bu rəqəm polis orqanlarında xidmətə marağın yüksək olduğunu göstərməklə bərabər, seçim prosesinin kütləviliyini təsdiqləyir.

### Asayiş keşikçisi, həm də Vətən keşikçisidir

Diqqət çəkən mühüm məqam isə xidmətə qəbulda Vətən müharibəsi iştirakçılarına xüsusi yer ayrılmasıdır. Keçən il seçimlərin növbəti mərhələsinə buraxılanların 435 nəfəri Vətən müharibəsi iştirakçısı olub.

Onların ölkədə cinayətkarlıqla mübarizəyə qoşulması həm müharibədən sonra məşğulluqlarının təmin olunması, həm də dövlətə sədaqətlə xidmət ənənəsinin davam etdirilməsi baxımından önəmlidir.

Ötən il paytaxtdan başqa Gəncə, Kürdəmir, Sumqayıt, Naftalan, Xaçmaz, Astara, Bərdə, Tovuz, Şəki, Lənkəran, Qusar və İsmayıllı rayonlarında sıra baxışları keçirilib.

Onu da nəzərə almaq lazımdır ki, bölgə üzrə vətəndaş qəbulu çərçivəsində keçirilən bu sıra baxışlarına yalnız keçirildiyi bir rayondan deyil, ətraf rayonlarda yaşayanlar da qatılır.

Prosesin bölgələri əhatə etməsi ilk növbədə oradakı gənclər üçün xidmətə qəbulun əlçatan olmasına imkan verir, digər tərəfdən isə geniş coğrafiyada polis orqanları üçün aparılan kadr seçiminin balanslı təşkilinə şərait yaradır.

### Gənclərə geniş imkanlar yaradılır

Gənclərin polis və daxili qoşunlarda xidmətə marağı, müharibə iştirakçılarının bu prosesdə fəal iştirakı və geniş kütlənin seçim mərhələsinə cəlb olunması onu bir daha təsdiqləyir ki, ölkənin gələcək təhlükəsizliyi və sabitliyi naminə müasir tələblərə cavab verən, peşəkar və məsuliyyətli kadr potensialı formalaşdırmaq aydın strategiyadır.

# Polis onlayn məkanda…

## İctimai asayiş yalnız küçədə yox, virtual mühitdə də qorunur

Texnologiyanın inkişafı həyatımızı asanlaşdırdığı qədər, yeni risklər də yaradır. Elektron ödənişlər, onlayn ticarət, mobil tətbiqlər və sosial şəbəkələr bu gün həyatın ayrılmaz hissəsinə çevrilib. Lakin bu rahatlığın kölgəsində bir təhlükə, virtual dələduzluq artmaqdadır. Artıq dələduzluq cibimizdə telefon qədər bizə yaxındır. Bir mesaj, bir link, bir telefon zəngi və bir anlıq diqqətsizlik.




Kibertəhlükəsizlik təkcə texniki məsələ deyil, davranış mədəniyyətidir. Əgər hər kəs öz məlumatını qorumağı həyat tərzinə çevirsə, dələduzluq üçün zəmin daralar. Bugünkü dələduzluq fiziki gücə yox, kiber təhdidlərə köklənib. İnsan düşünür ki, "bank zəng edirsə, deməli doğrudur". Halbuki nə bank əməkdaşı, nə də hansısa təşkilat PIN, CVV və SMS kod tələb etmir. Məhz dələduz üçün ən asan qapı vətəndaşın düşünmədən inanmasıdır. Hər bir belə hadisə yalnız pul itkisi deyil, həm də cəmiyyətdə qarşılıqlı etimad mühitinə vurulan zərbədir.

Dələduz texnologiyanı deyil, insanı oxuyur. O, proqramdan yox, psixologiyadan istifadə edir. "Qorxu", "təcili qərar", "uduş", "təhlükə" kimi bütün bu siqnallar insan beyninin sürətli reaksiyasına hesablanır. Bu, klassik sosial mühəndislik texnikasıdır ki, qurbanı düşündürmədən hərəkət etdirir. Bu səbəbdən müasir təhlükəsizlik təkcə texnoloji deyil, emosional intellekt məsələsidir. İnsan texnologiyanı idarə etdiyini düşünür, amma çox vaxt texnologiya insanın diqqətini idarə edir. Hər klik, hər bildiriş, hər "sürətli seçim" insan beyninin təbii reflekslərini dəyişdirir. Ona görə müasir insan artıq şəxsi məlumatının qoruyucusu olmalıdır. Əvvəllər dələduz qapını döyürdü, indi isə elektron mesaj göndərir. Əvvəllər səs tonundan tanınırdı, indi isə sosial mediada fişinqlə "dəstək" mesajları gəlir. Forma dəyişsə də, mahiyyət eyni qalır.

Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi onlayn mühitdə həyata keçirilən dələduzluq, fırıldaqçılıq və maliyyə maxinasiyalarına qarşı görünməz cəbhədə mübarizə aparır. Kiberpolis əməkdaşları tərəfindən saxta investisiya platformaları, bank kartlarının alqı-satqısı, onlayn mərc və qumar oyunları vasitəsilə əldə olunan vəsaitlərin leqallaşdırılması kimi qanunsuz fəaliyyətlər mütəmadi olaraq ifşa edilir.

Bu əməliyyatlar nəticəsində vətəndaşların maddi zərərə məruz qalmasının qarşısı alınır, virtual dələduzluq şəbəkələri neytrallaşdırılır.

Polisin kibertəhlükəsizlik sahəsində də həyata keçirdiyi tədbirlər bir daha göstərir ki, bu gün ictimai asayiş yalnız küçədə deyil, onlayn platformalarda da qorunur. Ona görə də vətəndaşlar bu sahədə diqqətli davranmalı, polislə həmrəylik nümayiş etdirməli, cəlbedici təkliflərə hər zaman şübhə ilə yanaşmalı və maksimum dərəcədə diqqətli olmalıdırlar.

*L.İsrəfilli*

# Məktublar məmnunluq ifadəsidir

## Etimad artır, təşəkkür çoxalır

Vətəndaş Firudin Şıxıyev DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında Nərimanov rayonu ərazisində üzləşdiyi yol-nəqliyyat hadisəsi ilə əlaqədar aparılan obyektiv araşdırmalara və həyata keçirilən tədbirlərə görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Xalq artisti Nəzakət Teymurova üzləşdiyi problemlə bağlı etdiyi müraciətə operativ baxılaraq müsbət həll olunmasına görə Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarış İdarəsinin əməkdaşlarına minnətdarlıq edir.

Sosial şəbəkə istifadəçisi Elçin Ağaliyev işini şərəflə, vicdanla yerinə yetirdiklərinə və hər zaman qayda-qanunlara doğru şəkildə əməl etdiklərinə görə Naxçıvan ŞPİ-nin əməkdaşlarından razılıq edir.

Bakı şəhər sakini Leyla Səmədova Daxili İşlər Nazirliyinə ünvanladığı məktubunda müraciətinə diqqətlə və həssaslıqla yanaşılmasına, məsələnin qısa müddətdə obyektiv araşdırılaraq müsbət həllini tapmasına və ona dəymiş ziyanın tam şəkildə ödətdirilməsinin təmin edilməsinə görə Abşeron Rayon Polis İdarəsinin İstintaq bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Astara rayon sakini Elvin Nəsirov öz məktubunda xidməti vəzifələrinin və peşə fəaliyyətinin öhdəsindən layiqincə gəldiklərinə, vətəndaş məmnunluğunun təmin olunmasına və humanistliyə görə BDYPİ-nin Lənkəran regional qeydiyyat-imtahan və texniki baxış şöbəsinin əməkdaşlarının xidmətini təqdir edir.

Əcnəbi vətəndaş Mohammedrza Rehmani DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, üzləşdiyi problemlə bağlı müraciətinə göstərdikləri operativliyə və qısa zamanda müraciətinin müsbət həll olunmasına görə Səbail RPİ 39-cu Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

# Polis - həm də xilaskar

## Fədakarlıq xarakterdir

**Azərbaycan Polisi hər zaman vətəndaşın güvən yeri olub. Bəzən yol göstərib, bəzən qoruyub, bəzən də həyatla ölüm arasında qalan insan üçün son ümidə çevrilib. Bu xidmət bizdən günbəgün fədakarlıq və cəsarət tələb edir, yeri gəldikdə isə öz həyatı bahasına başqasının həyatını xilas etməyi zəruri edir.**

Polis serjantı Coşqun Baxışov üçün mayası fədakarlıqla yoğrulan polis peşəsi uşaqlıqdan qəlbində daşıdığı arzunun gerçəkləşməsidir. Dörd il əvvəl daxili işlər orqanlarında xidmətə başlayan gənc polis əməkdaşının Vətən və millətə sevgi hissi ailəsindən keçib. Atası Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı, ehtiyatda olan zabitdir. Bu ailədə Vətən anlayışı Vətən yolunda əsl fədakarlıq etməklə ölçülür.

Hərbi xidmətini başa vurduqdan sonra Füzuli Rayon Polis Şöbəsində xidmət üçün müraciət edib, seçim prosesindən uğurla keçib, sədaqət andı içib və vəzifəsinin icrasına başlayıb.

Xidməti vəzifələrini yerinə yetirərkən zərurət yaranarsa, həyatını belə əsirgəməyəcəyinə and içən polis nəfəri üçün həmin an bu ilin yanvarın 7-də yetişir. Füzuli rayonunun Aranqala qəsəbəsində xidmət zamanı onlara təcili məlumat daxil olur: "Beyləqan və Füzuli rayonlarını birləşdirən Allahyarlı yolu ərazisində avtomobil kanala aşıb, ikisi azyaşlı olmaqla dörd nəfər köməksiz vəziyyətdə qalıb!" Dərhal hadisə yerinə çatan Coşqun Baxışov və xidmət yoldaşı Kənan Rəhimov vəziyyətin son dərəcə təhlükəli olduğunu görürlər. Kanalda suyun güclü axını, soyuq və qaranlıq çarəsiz qalan insanların həyatını



ciddi şəkildə təhdid edir, zaman isə onların əleyhinə işləyirdi.

Gənc əməkdaşımız düşünmədən hərəkətə keçir. Üst geyimini çıxararaq özünü kanalın soyuq sularına atır. İlk məqsədi uşaqlara çatmaq olur. Güclü axın və iliyə qədər işləyən buz kimi suda uzun müddət qalmaq polis əməkdaşının ayaqlarını keyitsə də, o, geri çəkilmir. Avtomobili dayaq kimi istifadə edərək belinə ip bağlayır və ailənin ən kiçik üzvündən başlayaraq hamını bir-bir təhlükəsiz əraziyə çıxarır.

Beləcə, o gecənin qaranlığında heç kəsin həyat işığı sönmür. Çünki polis yenə də özünü vətəndaşın köməyinə vaxtında çatdırmışdı.

Füzuli Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün komandiri polis kapitanı Ayxan Rəşidli də bildirir ki, işğaldan azad olunmuş ərazilərdə xidmət yüksək səviyyədə təşkil olunub. Polis əməkdaşları təkcə asayişi qorumur, eyni zamanda partlamamış silah və sursatların aşkar edilməsi, əraziyə gələn vətəndaşların təhlükəsizliyinin təmin olunması üçün fədakarlıqla çalışırlar.

Coşqun Baxışov da bu fədakar kollektivin nizam-intizamlı, güclü vətənpərvərlik ruhuna malik, verilən tapşırıqlara məsuliyyətlə yanaşan əməkdaşlarından biridir.

Onun həmin gecə göstərdiyi şücaət isə bir daha sübut etdi ki, polis peşəsi məsuliyyətlərin, cəsarətlilərin və başqaları üçün canından keçməyə hər an hazır olanların məsləyidir.

*L.Babayeva*

# Gələcək kursantlarla görüş

## Polis Akademiyasına təhsilə təşviq tədbirləri davam etdirilir





Polis Akademiyasına sənəd qəbulu çərçivəsində təbliğat-təşviqat kampaniyası fasiləsiz aparılır. Ölkənin bütün ərazisini əhatə edən tədbirlərdə yerlərdə polislərlə yanaşı Akademiyanın müəllimləri də iştirak edir.

Bakı şəhərinin müxtəlif rayonlarında, eləcə də Daşkəsən, Sabirabad, Gədəbəy, İmişli, Beyləqan, Cəlilabad, Lənkəran, Samux, Kürdəmir, Xaçmaz, Xızı, Yevlax, Astara, Siyəzən və digər rayonlarda yerləşən ümumtəhsil məktəblərində belə görüşlər keçirilib.

Görüşlərdə polis əməkdaşları tərəfindən Polis Akademiyasında təhsil almağın üstünlükləri, qəbul qaydaları, müasir təlim-tədris prosesi, kursantların dövlət hesabına təmin olunduqları qidalanma, geyim, yataqxana və tədris resursları, eləcə də istifadə olunan innovativ təhsil texnologiyaları haqqında məlumatlar şagirdlərin diqqətinə çatdırılır.

Polis Akademiyasına qəbul olmaq istəyən namizədlər üçün sənəd qəbulu prosesi də uğurla davam edir.

Eyni zamanda Akademiyada təşkil olunan təbliğat-təşviqat tədbirləri və açıq qapı günləri, yuxarı sinif şagirdləri və onların valideynləri ilə polis şöbələrində görüşlər təşkil olunur. Bu tədbirlər zamanı Polis Akademiyasına qəbul olmaq istəyən namizədlər və onların valideynləri polis əməkdaşlarının xidməti fəaliyyəti ilə əyani şəkildə tanış edilir, onların cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında oynadıqları mühüm rol izah olunur.

# Silah təhlükədir, riskdir

## Qanunsuz saxlanılan odlu silahlar könüllü təhvil verilməlidir

**Qanunsuz odlu silah və sursatın dövriyyədən çıxarılması ictimai asayişin qorunmasında həlledici rol oynayır. Çünki hər bir qeyri-leqal silah potensial cinayət, bir, hətta bir neçə insan həyatının məhvi deməkdir. Bu baxımdan polisin həyata keçirdiyi əməliyyat və profilaktik tədbirlər təkcə hüquqi deyil, həm də dərin mənəvi missiya daşıyır.**

Tapılan və ya könüllü təhvil verilən bütün odlu silah və sursatlar mütləq ekspertizadan keçirilir. Bu proses xüsusilə vacibdir, çünki bir çox hallarda illər əvvəl törədilmiş ağır cinayətlərin izləri məhz belə silahlar vasitəsilə üzə çıxarılır.

Polis tərəfindən, demək olar ki, hər gün aşkar edilən atıcı silahlar dərhal götürülərək dövriyyədən çıxarılır. İşğaldan azad edilmiş ərazilərdə tapılan silahlar da istisna təşkil etmir. Təcrübə göstərir ki, bu ərazilərdə tapılan silahları qanunsuz olaraq özündə saxlamaq və ya ölkənin digər rayonlarına aparmaq istəyən vətəndaşlar da olur. Bu əməlin hüquqi cəzası məlumdur, lakin məsələnin daha ağır, mənəvi tərəfi də var.

Qarabağda tapılan bu silahlar bir zamanlar erməni silahlı birləşmələrinin əlində Azərbaycan dövlətinə və dinc əhaliyə qarşı tuşlanıb, cinayətlərdə istifadə olunub. Bu baxımdan belə silaha toxunan hər bir vətəndaş bilməlidir ki, həmin silah böyük ehtimalla qanlı bir cinayət tarixçəsi daşıyır. Bəlkə Xocalıda, bəlkə də başqa bir faciədə günahsız insanların üzərinə tuşlanıb, atəş açılıb. Belə silahın yenidən qanunsuz dövriyyəyə qaytarılması nə qədər ağır qanun pozuntusudursa, bir o qədər də vicdan qarşısında böyük məsuliyyətdir.

Məhz buna görə polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah və sursatın aşkar edilərək götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər fasiləsiz davam etdirilir.

Elə bu günlərdə Bərdə Rayon Polis Şöbəsinin əməkdaşları qanunsuz silah alveri ilə məşğul olan iki nəfəri saxlayıblar. Məlum olub ki, Ağcabədi rayon sakinləri Sahil Kərimzadə və İntiqam Rüstəmov odlu silahların satışını təşkil ediblər. Əməliyyat zamanı ümumilikdə 6 ədəd avtomat, 6 patron darağı və 120 patron aşkar edilərək götürülüb.

Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları isə odlu silah və narkotik vasitələrin satışını təşkil edən, əvvəllər məhkum olunmuş Qorxmaz Əhmədovu saxlayıblar. Ondan 1 ədəd avtomat, silaha aid daraq və sursatlar, yaşadığı ünvandan isə narkotik vasitə aşkar edilib. Məlum olub ki, o, silahı satmaq niyyətində olub.

Silah və narkotik alveri təsadüfən eyni xətt üzərində birləşmir. Onların hər ikisi öldürmək üçün satılır. Silah və narkotik qaçaqmalçılığı mütləq bir nöqtədə kəsişir, çünki məqsəd birdir – öldürmək, məhv etmək, cəmiyyəti zəiflətmək. Bu öldürücü vasitələri əldə edən şəxslər də cinayət törətmək, cinayətin bir hissəsinə çevrilmək niyyətlərini açıq şəkildə ortaya qoyurlar.

Belə ağır cinayətlərin qarşısını vaxtında almaq üçün polis əməkdaşlarının cəmi bir neçə gün ərzində keçirdikləri tədbirlər nəticəsində xeyli silah-sursat aşkar edilib. Yanvarın 7-dən 11-dək 49 ədəd avtomat, 5 ədəd pulemyot, 12 ədəd tapança, 74 ədəd qumbara, 14 ədəd alışdırıcı, 202 ədəd tüfəng, 135 ədəd patron darağı, 17 663 ədəd müxtəlif çaplı patron, 7 ədəd mərmi və 7 ədəd süngü-bıçaq götürülüb.

Bu rəqəmlərə baxanda neçə-neçə cinayətin qarşısının alındığını aydın təsəvvür etmək olar. Qanunsuz silah dövriyyəsinə qarşı mübarizə polisin yalnız hüquq-mühafizə fəaliyyəti deyil, eyni zamanda vətəndaşların və bütövlükdə cəmiyyətin yaşamaq haqqının qorunması uğrunda apardığı mübarizədir.

*Ş.Əfəndizadə*

# Piyadalar maarifləndirilir

## Qanunvericiliyin tələbləri çatdırılır...



Özü və başqalarının həyatına real təhlükə yaradan piyadalara qarşı profilaktik tədbir keçirilib. Qanunvericiliyin tələblərinə əsasən piyadalar avtomobil yolunun hərəkət hissəsini, küçələri piyada keçidləri ilə, o cümlədən yeraltı və yerüstü keçidlərlə, bunlar olmadıqda isə yolayrıclarında səki xətti və ya yol çiyni xətləri boyunca keçməlidirlər.

Profilaktik tədbirlərlə yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin qarşısına qəflətən çıxan piyadalar müəyyən olunub və onlarla maarifləndirici söhbətlər aparılıb.

Polis bir daha bütün hərəkət iştirakçılarının diqqətinə çatdırır ki, qaydalara əməl etmək şəxsin özünü və başqalarını həyati təhlükələrdən qoruyur.

# Yanğın törədən şəxs yaxalandı

## Polis əməkdaşları tədbirlər görüb

Yanvarın 7-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində əkin sahəsində baş vermiş yanğın hadisəsi ilə bağlı polis əməkdaşları tərəfindən tədbirlər görülüb.

Araşdırmalarla yanğının 1960-cı il təvəllüdlü F.Abbasov tərəfindən törədildiyi müəyyən edilib və o, polis əməkdaşları tərəfindən saxlanılıb. Hadisə nəticəsində 1 hektar quru ot sahəsi yanaraq zərər görüb.

Toplanmış materiallar baxılması üçün məhkəməyə göndərilib.

# Dələduz "menecer"

## Reklam adı ilə aldadırdı

Özünü sosial media meneceri kimi təqdim edərək müxtəlif mağaza və obyekt sahiblərinə qarşı dələduzluq edən 26 yaşlı Aysu Hüseynova Xəzər Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. O, həmin məkanların sosial şəbəkələrdə reklamlarını təşkil edəcəyi barədə yalan vədlər verərək zərərçəkənlərdən 16379 manat pul vəsaitini ələ keçirib. Daha sonra A.Hüseynova üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyərək onlarla əlaqəni kəsib. Araşdırmalarla saxlanılan şəxsin bu üsulla ümumilikdə 13 nəfəri aldatdığı müəyyən edilib.

Vətəndaşlardan daxil olan şikayətlərlə bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

# Qonşu əməli

## Cinayətin üstü açılıb



Qonşunun pul və qızılını oğurlayan şəxs saxlanılıb.

Nəsimi rayonunda evlərin birindən 5000 manat dəyərində qızıl-zinət əşyaları və nağd pul oğurlanıb.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, zərərçəkənin qonşusu 25 yaşlı R.Allahverdiyeva saxlanılıb.

Araşdırmalarla məlum olub ki, saxlanılan şəxs zərərçəkənin evdən çıxarkən qapının üzərində unutduğu açarı gizlicə götürərək özündə saxlayıb. Daha sonra evdə heç kim olmadığı vaxtda mənzilə daxil olaraq oğurluq edib.

Araşdırma davam etdirilir.

# Soyğunçu "trio"

## Şübhəli şəxslər müəyyən olunub

Yanvarın 8-də Nizami rayon sakini olan bir nəfər polisə müraciət edərək ictimai nəqliyyatda tanımadığı şəxslərin onu təqib etdiyini və avtobusdan düşərkən mobil telefonunu aldığı hadisə yerindən uzaqlaşdıqlarını bildirib.

Nizami Rayon Polis İdarəsi 25-ci Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən yetkinlik yaşına çatmayan 3 nəfər müəyyən olunaraq saxlanılıb.

Həmin şəxslərin zərərçəkəni təqib etmələri və hadisəni törətmələri kameralar vasitəsilə də qeydə alınıb.

Faktla bağlı araşdırmalar aparılır.

# Xidmətin ön cəbhəsi...

## PPX əməkdaşları nələrə diqqət yetirməlidir?

**Post-patrul xidməti polisin üzdə ən çox görünən sahələrindən biri olmaqla yanaşı, eyni zamanda ən riskli sahələrdən hesab olunur. Bu xidmətin əməkdaşlarının əsas vəzifəsi ictimai asayişi təmin etmək olsa da, onlar əməliyyat aparatı ilə birlikdə, demək olar ki, cinayətkarlıqla mübarizədə ön xətdə dayanırlar. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təminindən tutmuş cinayətkarlıq, eləcə də inzibati xətalara qarşı mübarizəyədək geniş bir sahədə əsas məsuliyyət həm də onların çiyinlərinə düşür.**

### İctimai təhlükəsizliyin və ictimai qaydanın qorunması post-patrul xidmətinin çiyinlərindədir

Məhz buna görə post-patrul xidmətində hazırlıq səviyyəsinin yüksək olması və müasir dövrün tələblərinə uyğun şəkildə daim təkmilləşdirilməsi olduqca vacib şərtdir.

Qeyd etmək yerinə düşər ki, ölkəmizdə ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsində post-patrul xidməti əməkdaşlarının fəaliyyəti xüsusi diqqətə layiqdir.

Gələk bu xidmət sahəsinin riskli tərəflərinə. Məlum olduğu kimi, patrul fəaliyyəti həm də gündəlik təkrarlanan marşrutlar üzrə xidmət aparmaq deməkdir. Polis əməkdaşı gün ərzində eyni küçələri, tanış simaları dəfələrlə görür. Bu hal bir tərəfdən ərazini və insanları yaxşı tanımağa imkan versə də, zaman-zaman diqqətin zəifləməsinə, təhlükənin isə "adi" qəbul edilməsinə səbəb ola bilər. Halbuki, məhz xırda detalların vaxtında fərqinə varan polis əməkdaşı təhlükə və hadisələrin də qarşısını asanlıqla ala bilər. Bu məsələdə həm yerli, həm də xarici ölkələrin təcrübəli polis əməkdaşlarının tövsiyələri oxucularımız üçünfaydalı olar.




### Həddindən artıq təhlükəsizlik hissi təhlükəni artırır

Ümumi qənaət ondan ibarətdir ki, patrul zamanı ən çox rast gəlinən nöqsanlardan biri əməkdaşda təhlükəsizlik hissinin həddindən artıq olmasıdır. "Bu ərazi sakitdir", "burada problem olmur" kimi yanaşmalar reallıqda mövcud olan riskləri görünməz edə bilər.

Təcrübə göstərir ki, hadisələrin mütləq əksəriyyəti məhz gözlənilməyən məqamlarda baş verir.

Eyni marşrut üzrə hər gün eyni saatda hərəkət etmək, avtomobildən ətrafı yoxlamamaq, diqqəti yalnız rabitə vasitələrinə və mobil qurğulara yönəltmək patrul zamanı təhlükəni artıran əsas amillərdəndir.

Xüsusilə, avtomobildə əyləşən şəxsə yaxınlaşarkən gözlərin deyil, əllərin nə etdiyini izləmək əsas diqqət yetirilməli məsələdir.

Çox zaman təhlükə mimikadan bəlli olmur, əllərin mövqeyindən, hansı vəziyyətdə olmasından sezilir. Əllərin ciblərdə saxlanması, arxada gizlədilməsi və ya davamlı hərəkətdə olması potensial risk siqnalı kimi qiymətləndirilməlidir.

Post-patrul əməkdaşı ərazini nəzarətdə saxlamaqla yanaşı, insanların davranışlarını da müşahidə etməyi bacarmalıdır.

### Şübhəli şəxslərin risk səviyyəsini müəyyən etmək başlıca şərtdir

Şübhəli şəxslərin risk səviyyəsini müəyyən etmək üçün onun davranışları diqqətlə müşahidə olunmalıdır. Səs tonunun qəfil dəyişməsi, əsassız və uzun izahlar, suallara cavab verərkən tərəddüd, göz təmasından yayınma, yaxud həddindən artıq göz təması qurmağa can atmaq daxili gərginliyin göstəricisi ola bilər.

Bununla belə, tək bir davranış əlaməti risk və ya təhlükə üçün əsas deyil. Risk adətən bir neçə əlamətin eyni vaxtda müşahidə olunması nəticəsində formalaşır. Məsələn, şəxsin əllərini gizlətməsi ilə yanaşı daxili gərginliyi və səs tonunun yüksəlməsi artıq vəziyyətin xüsusi nəzarət tələb etdiyini göstərir. Belə hallarda polis əməkdaşının təmkinli davranışı, şübhəli şəxslə təhlükəsizlik məsafəsini qorunması və nəzarəti gücləndirməsi təhlükəli vəziyyəti öz xeyrinə dəyişməkdə həlledicidir.

Unutmaq olmaz ki, patrul fəaliyyəti zamanı buraxılan xırda nöqsan sonradan ağır nəticələrə səbəb ola bilər. Ona görə ətrafdakı vəziyyəti düzgün qiymətləndirmək, xidmətdə artıq rutinləşmiş hesab etdiyi vərdişlərə tənqidi yanaşmaq, öz üzərində mütəmadi işləmək, fiziki formasını qorumaq və şəxsi tələbkarlığını artırmaq post-patrul xidmətində təhlükəsizliyin əsas təminatlarından sayılır.

*R.Mehtiyev*

# Hərbi salam xidmətə sədaqətdir

## O, dövlətə sadiqliyimizin gündəlik ifadəsidir

**Hərbi salam deyəndə dövlət və bayrağa, həmçinin hərbi qulluqçuların nizamnaməyə uyğun bir-biriləri arasında ehtiram ifadə edən hərəkəti başa düşülür. Obrazlı dildə desək, bu, Vətənə sədaqətin ifadəsi, nizam-intizam formasıdır. Tək bir əl hərəkəti ilə vəzifə borcuna ehtiram jestidir. Bu jestin kökləri müasir dövrlə məhdudlaşmır, hətta orta əsrlərə qədər gedib çıxır.**

### Salamın başlanğıcı

Tarixi mənbələr göstərir ki, əli yuxarı qaldırmaqla salam jesti ilk olaraq döyüşçülər və cəngavərlər arasında yaranıb. Orta əsrlərdə zirehli döyüşçülər qarşılaşanda dostluqlarını sübut etmək üçün sağ əllərini dəbilqələrinə aparır, bununla da silah daşımadıqlarını nümayiş etdirirdilər. Bu hərəkət qarşıdakına "mən təhlükə yaratmıram" mesajı verirdi. Tədricən bu jest hörmət simvoluna çevrildi. Sonradan isə hərbi salam forması aldı və müxtəlif ölkələrin silahlı qüvvələri ilə yanaşı polis orqanlarına da keçdi.

### Ənənələr ölkələrə görə necə dəyişib?

Müxtəlif ölkələrdə polis salamının forması da milli tarixə və mədəniyyətə uyğun fərqlənir. Məsələn, İngiltərədə polis məmurları, əsasən, baş geyimlərini qaldırır və ya yüngülcə toxunaraq salam verirlər.

Fransada polis məmurları adətən formal salam jesti yerinə baş yelləmə və ya "bonjur, monsenyor, madam" kimi nəzakətli sözlərdən istifadə edirlər.

ABŞ-da polislər daha çox qeyri-rəsmi, lakin intizamlı bir tərzdə salam verir. Tez-tez əl qaldırma, baş yelləmə və ya "ser, madam" deyərək müraciət etmə tərzi ilə. Polis vətəndaş münasibətlərində bir növ balans qorunmağa çalışılır, yəni həm güc, həm də qayğıkeşlik göstərilir.

Polis salamı formanın, xidmətin və peşə etikasının bir hissəsidir. Hər bir salam qarşıdakı şəxsə "mən buradayam, sənə hörmət edirəm" mesajı verməklə yanaşı ona qanunun aliliyini bir daha xatırladır. Eyni zamanda hərbi salam verən polis əməkdaşı öz dövlətini, forması və üzərinə götürdüyü məsuliyyəti təmsil edir. Məhz buna görə polisin sağ əlini qaldırıb sağ qaşının üstünə aparması daima ciddiyyət və təmkinlə müşayiət olunur.

Bütün dünyada polis salamı müxtəlif formalarda olsa da, mahiyyəti eynidir: hörmət, etimad və qanunlara sadiqlik. Bu sadə jest illərlə



formalaşan ənənələrin və dövlətin güc strukturunun vizual rəmzidir.

### Əməkdaşlar hərbi salam verməyə borcludurlar

Azərbaycan DİN əməkdaşlarının, hərbçilərimizin salamlaşma qaydası müvafiq Sıra Nizamnaməsi ilə tənzimlənir. Bu nizamnaməyə əsasən həm polis əməkdaşları, həm də hərbçilərimiz özlərindən yüksək rütbəli komandirlərə - rəislərə hərbi salam verməyə borcludurlar. Qaydaya görə sağ əl baş geyiminə yaxınlaşdırılır, orta barmaq qaşın qurtaracağından bir neçə millimetr aralı olmalı, əlin içi görünməməli, qol yerə paralel olmalıdır. Baş geyimi yoxdursa, rəisə yaxınlaşan zaman farağat (əsgəri duruş) vəziyyətində gözlə müşahidə edərək ondan aralanma gözlənilir.

Azərbaycanda da polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən tətbiq olunan belə salamlaşma hörmət və ehtiram əlamətidir. İctimai asayişin keşikçiləri olan polislər və Daxili Qoşunların hərbçiləri üçün isə hərbi salam həm xalqa verilən söz, həm də içilən anda sadiqliyin gündəlik ifadəsidir.

*A.Tahirova*

# Hərbçimiz çempiondur

## Daxili Qoşunların əsgəri hamıdan güclü olub



Abşeron Olimpiya Kompleksində 8–11 yanvar 2026-cı il tarixlərində sambo güləşi üzrə 67-ci Azərbaycan Çempionatı keçirilib. Çempionatda DİN əməkdaşları uğurla çıxış ediblər.

Respublikanın müxtəlif bölgələrindən, eləcə də paytaxt klublarından olan idmançıların qatıldığı çempionatda güclü mübarizə yaşanıb.

Yarışda Daxili Qoşunların əsgəri Adil Adilzadə 88 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək birinci yerə layiq görülüb və Azərbaycan çempionu adını qazanıb.

Çempionatda Xızı Rayon Polis Şöbəsinin idman təlimatçısı vəzifəsində xidmət edən polis kiçik serjantı Əsgərov Bahadur isə 98 kiloqramdan yuxarı çəki dərəcəsində üçüncü yerə yüksələrək bürünc medal əldə edib.

Qeyd edək ki, bu nəticələr Daxili İşlər Nazirliyində idmana göstərilən diqqət və qayğının növbəti bariz nümunəsidir.

# Təcrübə və dərs

## Cinayətin açılmasının iki əsas dayağı

Cinayətlərin üstünün açılmasında iki amil tarix boyu həlledici rol oynayıb. Birincisi, nəticəsi ilə tarixdə iz qoyacaq qədər uğurla keçirilmiş polis əməliyyatlarıdır. İkincisi isə cinayət işlərinin gedişində əldə olunan uğurlardan və buraxılan nöqsanlardan çıxarılan dərslərdir. Məhz bu iki faktorun vəhdəti polisin fəaliyyətinin inkişafına, metodların təkmilləşməsinə və gələcək əməliyyatların daha effektiv aparılmasına imkan yaradıb.

Tarixə nəzər saldıqda görürük ki, elə polis əməliyyatları var ki, bu günün və gələcəyin xidməti üçün əsl təcrübə kitabçasıdır. Bu əməliyyatların bəziləri yüksək peşəkarlıqla və uğurla nəticələnib, bəziləri isə müxtəlif səbəblərdən istənilən effekti verməyib. Lakin onların hər birinin təhlili bizi belə bir ortaq nəticəyə gətirib çıxarır ki, uğur təsadüfi deyil, dəqiq planlama və effektiv koordinasiyanın məhsuludur.

Belə əməliyyatlarda koordinasiya həlledicidir. Əməkdaşlar arasında əlaqənin zəifliyi, məlumat mübadiləsində yaranan boşluqlar ən yaxşı hazırlanmış əməliyyat planının belə uğursuzluqla nəticələnməsinə səbəb ola bilər. Eyni zamanda əldə olunan məlumatın dəqiqliyi və vaxtında yoxlanılması əməliyyatın taleyini müəyyən edən əsas şərtlərdəndir. Səhv və ya natamam informasiya riskləri artırır və qərarvermə prosesini çətinləşdirir.

Təcrübə onu da təsdiq edir ki, komanda daxilində sağlam və davamlı ünsiyyət vəziyyətin idarə olunmasını xeyli asanlaşdırır. Bəzi hallarda isə səbir və gözləmə gücdən daha effektiv nəticə verir. Ən uğurlu polis əməliyyatları məhz dəqiq planlama ilə başlayır.

Məşhur cinayət işləri cəmiyyət üçün sensasiya doğursa da, istintaq orqanları üçün təlim materialıdır. Bu işlərin araşdırılması istintaq prosesində yol verilən səhvləri və düzgün yanaşmaları açıq şəkildə ortaya qoyur.

# Reflektor geyimi nədir?

## Qaranlıqda özünüzü qoruyun!

Gecə saatlarında və ya zəif işıqlı ərazilərdə piyada və ya



velosiped sürən şəxslər üçün reflektor elementlər həyati əhəmiyyət daşıyır. Sadə bir çanta parçası, qolbaq və ya geyim üzərində olan işıq əks-etdirici lentlər sürücülərin uzaqdan bu şəxsləri görməsinə imkan yaradır. Statistikalar göstərir ki, reflektor taxan piyadaların yol qəzasına düşmə ehtimalı 80 % - ə qədər azalır. Xüsusilə, məktəbli uşaqlar, idmançılar və gecə işə gedib-gələn insanlar üçün bu aksesuarlar vacib təhlükəsizlik vasitəsidir.

Reflektorlar ucuzdur, istifadəsi asandır və həyatı xilas edə bilər. Onu da qeyd edək ki, post-patrul xidmətinin əməkdaşlarının uniformalarında da reflektor elementlərdən istifadə olunur ki, bu da gecənin qaranlığında seçilməyi asanlaşdırır. Unutmayaq ki, görünmək - güvəndə olmaq deməkdir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik